*Zəkiyyə Əbilova. Yusif Məhəmməd əl-Xarəzminin "Məfatihul-ülum" əsərində fiqh məsələləri//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.396-399.* https://doi.org/10.59849/mbcatr.2023.396

**Orcid: 0000-0003-4395-4042**

**Zəkiyyə Əbilova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*fəlsəfə elmləri doktoru, dosent*
zekiyye.abilova@mail.ru

# YUSİF MƏHƏMMƏD ƏL-XARƏZMİNİN "MƏFATİHUL-ÜLUM" ƏSƏRİNDƏ FİQH MƏSƏLƏLƏRİ

**Xülasə**

Əbu Məhəmməd Yusif əl-Katib əl-Xarəzmi (v. 997) elm aləminə məlum olan yeganə əsəri "Məfatihul-ulum"un (Elmlərin açarları) girişində yazır:" İnsanı digər yaranmışlardan üstün tutan Qadir, Hakim, Uca və Əzəmətli Allaha şükürlər olsun. Onu (insanı) seçmək və danışmaq məziyyətləri ilə fərqləndirmiş, öz qullarına elm və hikmətdən bəhrələnməkdə dəyər, risk etməkdə qədər vermişdir". İki məqalədən ibarət tərtib edilmiş əsərdə fiqh, fəlsəfə, kəlam, kimya, nəhv, tibb, astronomiya və s. kimi ərəb və əcəm elmlərinin mahiyyəti, terminologiyası barədə məlumat verilir, tətbiq olunduqları sahələr bablar daxilində şərh edilir. Bu yazıda əsərin on bir fəsildən ibarət "Fiqh" babından bəhs olunur. Fiqh müsəlman qanunşünaslığı kimi fürui-din əsasında praktiki qaydaların şərhini özündə birləşdirir.
**Açar sözlər:** Yusif əl-Xarəzmi, Məfatihul-ulum, fiqh, tənqidi mətn, monoqrafiya

**Zakiya Abilova**

# ISSUES OF JURISPRUDENCE IN THE WORK "MAFATIHUL-ULUM" BY YUSIF MAHAMMAD AL-XARAZMI

**Abstract**

Abu Mahammad Yusif al-Katib al-Xarazmi (d.997) writes in the introduction to the only work known to scientific world "Mafatihul-ulum" (keys to sciences) Thanks be to the miguty, sovereign, high and glorious Sod, who has made man superior to other creatures. "He distinguished him (man) with the merits of choosing and speaking, and gave his servants the value of benefiting from knowledge and wisdom, even takinq risks". The compiled work consisting of two articles provides information on the essence and terminology of Arabic and non-Arabic sciences such as jurisprudence, philosophy, kalam, chemistry, nahv, medicine, astronomy, etc. and the areas where they are applied, are explained within the chapters. This article talks about the "Fiqh" chapter of the fork, which cousists of eleven chapters. Fiqh, like muslum jurisprudence, incorporates the inter pretation of praktikal rules on the basic of religion.
**Key words:** Jusif al-Xarazmi, Mafatihul- ulum, fiqh, critical science, monograph

IX-XI əsrlərdə Xarəzm Şərqin nəhəng mədəniyyət mərkəzlərindən biri olaraq qalmaqda idi. Burada zəngin ənənələri ilə inkişaf edən elmin intellektual səviyyəsi çox yüksək idi. Təsadüfi deyildir ki, cəbrin əsaslarının son nəticələrini elm aləminə gətirən Məhəmməd ibn Musa əl-Xarəzmi, əsərləri ilə riyaziyyat və astranomiya elmlərində şöhrət qazanmış Əbu Nəsr ibn İraq (v.1035), elmin bir çox sahələrini zənginləşdirmiş dahi ensiklopedik alim, Şərqdə ilk qlobusun yaradıcısı Əbu Reyhan Biruni (973-1048), riyaziyyatçı alim Əbu Əli əl-Hububi (X əsr), astronom Əbu Həsən ibn Bamşaz (X əsr), təbib, müdəqqiq və filoloq Əbul-Xeyr ibn əl-Həmmar (X-XI), kimya elmində tanınmış Əbul - Həkim Məhəmməd ibn Əbdülməlik əs-Saleh əl-Xarəzmi əl-Kasi (XI) və başqa bir çox həmin dövr Xarəzm alimləri bu gün də dünyaca məşhurdurlar. X əsr elmi fikrinin layiqli nümayəndələrindən biri də Xarəzmin nəhəng ensiklopedik alimi Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Yusif əl-Xarəzmidir (v.m.997). Nişapurda yaşayarkən Əbul Həsən əl-Utbinin yanında (974-982) katib kimi çalışdığından adına əl-Katib ləqəbi də əlavə olunmuşdur (Brokelmann, C. 1898: 244). Xarəzminin elm aləminə məlum olan yeganə əsəri "Məfatihul-ülum" (Elmlərin açarları) yaşadığı dövrün mövcud elm sahələri barədə məlumat verən maraqlı

mənbədir. Ərəb və əcəm elmləri daxil olmaqla iki məqalədən ibarət tərtib edilmiş əsərdə fiqh, fəlsəfə, kəlam, kimya, nəhv, musiqi, tibb, astranomiya və s. barədə məlumat verilir, onların mahiyyəti, terminologiyası, tətbiq olunduqları sahələr fəsil və bablar daxilində şərh edilir. Tanınmış sovet ərəbşünası, akademik İ.Y.Kraçkovskinin fikrincə ""Məfatihul-ülum" elmin bütün sferasını əhatə edən və həmin dövr həyatının bütün tərəflərini işıqlandıran çox maraqlı ilkin mənbədir" (Xayrullayev və Bahadirov, 1988: 1). Onu da qeyd etmək lazımdır ki, Xarəzmiyə qədər və ondan sonra da bir çox görkəmli alimlərin elmlərin təsnifatına həsr olunmuş əsərləri məlumdur. Bəs Xarəzminin əsərini digərlərindən fərqləndirən əsas xüsusiyyət nədən ibarətdir? Bu sualı Girişdə cavablandıran alim yazır:"Bu kitabda yığcamlıq və ixtisarlar baxımından oxucunu çaş-baş salan, eləcə də, lüzumsuz uzadılmağa və artırılmağa ehtiyac duyulmayanları topladım. Daxil edilməyənlər elm aləmində daha çox yayılmış və tanınmış, qaranlıq və anlaşılmamazlıqdan uzaq zikrlərdir. Əgər kitablar uzun-uzadı şərh və çoxcildli təfsirdən bəhs edirsə, bu iki tərəf arasında razılıq əldə etməklə həyata keçirilib. Şərhə ehtiuyac olmadıqda, inandırıcı olmayan dəlil və sübutsuz törəmə sözlərin incəliklərinə çox varmadım. Bu minvalla, ad və ləqəblər uzun-uzadı olduqda, yeni söz yaratdım. Əcəm sözləri ərəbləşdirdim" (Vloten, 1895: 4-5). Məqalədə əsərin on bir fəsildən ibarət "Fiqh" babından bəhs olunur.

Şəriət elmi- qanunşünaslıq iki hissəyə bölünür. Elmin nəzəri problemlərini öyrənən və "İbrətləndirmə" adlanan Elmül-kəlam hissəsi üsuli-dinin qayda və qanunlarını şərh edir. Bu elmin öyrənilməsi və şaxələnmiş qanunların dərk edilməsi yalnız yüksək ruhani şəxslərə, müctəhidə mənsubdur.

"Elmül-fiqh"- (hüquqşünaslıq) adlanan ikinci hissə isə fürui-din əsasında praktiki qaydaların şərhini özündə birləşdirir. Sözlükdə "bir şeyi bilmək", "yaxşı və tam anlamaq", "dərinlənməsini qavramaq" mənasına gələn fiqh kəlməsi "elm", "fəhm" kimi yaxın mənaları da ifadə edir. Fəqih isə bir mövzunu "dərindən qavrayan", "incə qavrayış sahibi" mənalarını daşıyır (Əbilova (Babayeva), 2012: 5). Fiqhin yaranmasından günümüzə qədər keçdiyi dəyişmələrdə bəzən ayrı-ayrı fərdlər və yaxud nəsillər bəzən də siyasi, sosial və mədəni şərtlər əsas rol oynamışdır. Öz dövrünə məxsus fəqih və müctəhidlər istər üsuli-dinə, istərsə də fürui-dinə aid bir sıra əsərlər yazmışlar ki, bu gün də Islam şəriətini öyrənmək sahəsində öz mahiyyətini saxlamaqdadır. Elə əsərlər də tərtib olunmuşdur ki, burada bir çox, o cümlədən şəriət elmləri barədə də məlumat verilir. Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Yusif əl-Xarəzminin. "Məfatihul-ülum" (Elmlərin açarları) əsəri də bu qəbildəndir.

Əsərdə birinci yerdə verilən Fiqh bölümü aşağıdakı fəsillərdən ibarətdir: Üsuli-fiqh; Taharat; Namaz; Oruc; Zəkat; Həcc; Alqı; Nikah; Qan bahası; Miras və Qeyri-adi hadisələr. Xarəzmi birinci fəsli "Üsuli-fiqh" adlandırır. İslami elmlərdən biri olan üsuli-fiqh icmali dəlilləri və fiqhi məsələlərin açıqlanması qaydalarını öyrədən sahə kimi tanınır (Dönməz, 2012: 42, 201). Müəllif bu başlıq altında Qurani-Kərim, sünnə və ümmətin icmasını əsas götürərək şərh edir. Peyğəmbərin (s) sünnəsinə gəlincə, onu üç aspektdən - söz, əməl və qərar baxımından təhlil edir. Sözə gəlincə, Peyğəmbərin (s) buyurduqları, əməl Onun etdikləri barədə danışılanlardır. Qərar (Onun (s)) qövmü üçün qərar verdikləridir. İcmaya gəlincə, mühacir və ənsardan olan səhabələrin ittifaqa gəlməsidir. Qiyasa gəlincə, Davud bin İsfəhanidən və ona tabe olanlardan başqa bütün alim cəmiyyətlərinin təsdiqlədiyini qeyd edir və iki qismə: naqis qiyas və bənzər qiyasa böləndüyünü xatırladır. Fəqihlərin çoxu bunların ikisinin arasında fərq qoymayırlar.

Babın ikinci fəsli taharat haqqındadır. Bu bölümdə taharat almağın şəraiti və yolları barədə deyil, qısaca olaraq, saf və qarışıq, eləcə də təmizlənmək üçün seçilən su barədə məlumat verilir. Suları tərkibinə görə müəyyənləşdirən müəllif taharat üçün saf suyun vacibliyini bildirir.

Bölümün üçüncü fəsli namaz və azan haqqındadır. Sübh namazına vaxtında qalxmağın savabını çatdırmaq istəyən müəllif yazır ki, sübh namazının azanında müəzzinin dedikləri yuxudan xeyirlidir. Yəni, səhər yuxusu nə qədər şirindirsə, həmin vaxt müəzzinin azanda işlətdiyi kəlmələr istər ruhi, mənəvi istərsə də fiziki cəhətdən daha faydalıdır. Qısa və lakonik olan fəsildə mövzu ilə bağlı bir neçə termin də işlədilib. Terminlərin açmasını da verən müəllif yazır:"" ət-Təhlil"- təslim (salamlamaq) deməkdir. "ət-Təşəhhüt" (namazın) sonunda Allaha tə`zim sözündəndir. "əl-Qunut"- vitr namazının duasıdır". Onu da qeyd etmək lazımdır ki, şiə məzhəb müsəlmanlar fərz namazlarda da qunut tuturlar.

Dördüncü fəsil oruc haqqındadır. Girişdə müəllifin özünün də qeyd etdiyi kimi, əsər çox qısa şəkildə tərtib edildiyindən, bəzən məsələlərin şərhi natamam xarakter daşıyır. Belə bir fikir də söləmək ehtimalı ortaya çıxır ki, Xarəzmi ixtilaflı məsələlərə cavab verməyə çalışmışdır. Məsələn, fəslin lap birinci cümləsində yazır ki, əl-Qəls Xəlil söyləmişdir ki, boğazdan çıxır, ağızı doldurur və ya onsuz (sifrəqsiz, yəni gəyirmək- Z.Ə.) qusmaq deyildir. Əgər, qaytararsa, o qusmaqdır. Görünür, müəllif burada orucu pozan

hallardan söhbət açır. Bildiyimiz kimi, orucu pozan bir neçə hal var. Həmin dövrdə məhz bu hal ixtilaflı olduğundan, Xarəzmi ictihadını bildirmişdir. Çox güman ki, Xarəzmi şafii məzhəbinin nümayəndəsi olmuşdur. Digər məzhəblər (məsələn şiə məzhəb müsəlmanlar) üçün bu icihadın özü də qəbul edilməyə bilər.

Babın beşinci fəsli zəkat haqqındadır. Müəllif fəslə sikkələrin şəkilləri barədə məlumatla başlayaraq yazır:"" ər-Riqa"- gümüş pulun üz tərəfidir. "əl-Varq"- döyülmüş dəmir puldur. "əl-Varaq"- fəthəli "ra" ilə deyildikdə, dirhəm, dəvə və s. mənaları ifadə edir". Bu fəsildə də mövzu ilə bağlı bir sıra terminlər işlədilir və onların açıqlanması verilir. "ən-Nisab" - ondan iki yüz dirhəm və ya iyirmi dinar kimi zəkat verilməsi vacib olandır. "ər- Rikəz"- cahiliyyə dövründə torpağa basdırılmış xəzinəyə deyilirdi. "əl-Kus`a" çəkisi ölçülən zaman dəvə, qoyun və başqa heyvanların təpik atmasıdır. Görünür, bu zaman tərəzinin tarazlığı pozulur və çəkidə yanlışlıq olur.

Burada zəkat, eləcə də onun miqdarı barədə söylənilməsə də, dəvə, iribuynuzlular, at, qoyun və keçi kimi heyvanların yaş dövrləri barədə məlumat verilir. Xarəzmi atın yaş dövrləri barədə yazır:" (Ömrünün) birinci ilində o "hailiyyun" (illik) dur. Sonra, ikincidə dayçadır. Belə ki, (ətrafı) anlamağa çalışır, yəni artıq süddən ayrılmış olur. Ondan sonra, üçüncü ildə "cəz`un"- ipə-sapa yatmayan" cavan atdır. Dördüncü ildə "səniyyun" – kəsici dişləri çıxmış və ya yerləri çatlamış olur. Beşinci ildə "raba`in" – (ömrünün) dörddə birini yaşamış olur, sonra "qarihun" – yaşlı sayılır". Fəsildə qüllə, ratl, mənan, vasq, viqrə, uqiyə, məkuk, qafiz və s. kimi ərəb ölçü vahidləri barədə də məlumat verilir.

Altıncı fəsil Həcc haqqındadır. Fəslin tərtibinə "əl – qıran" (birləşdirmə) sözünün tətbiqi ilə başlayır və qeyd edir ki, əgər ümrə həcc ilə birgə qərarlaşdırılarsa, bu qırandır. Lakin əvvəlcə həccin zamanını gözləyib, rituallarını tamamladıqdan sonra ümrəni başlamaq lazımdır. Ümrə həccdən əvvəl olarsa, "ət-təməttu`" (istifadə etmək hüququ) pozulmuş olur və ümrə haram sayılır. Əgər onlardan birini niyyət etmiş olarsa, burada "əl-qıran" yoxdur. "əl-İstiləm" müqəddəs bir əşyanı öpmək deməkdir. Burada Həcərül-Əsvədi öpmək nəzərdə tutulur. Xarəzmi yazir ki, deyilənə görə o gözə çəkilən sürmə tərkibindəndir. Burada da bir sıra terminlər şərh edilir. "ər-Raməl" –torpaq, "əl-hərvələ" - sürətli yeriş, "əl-cəmzə" - qaçaraq tez-tez yerimək, "əl-hədyu" – dəstədən beytüllaha döğru yolgöstərən, "əl-bədnə" - Məkkədə kəsilən qurbandır ki, beytə hədiyyə edilir. "Cəmra" xırda daş deməkdir. "ət-Təcmir" – daşatmadır. Burada həcc zamanı şeytana daşatma ayini nəzərdə tutulur.

Yeddinci fəsil satış və şəriklik haqqındadır. Fəsil "əl – musarratu" (yelini bağlanmış dəvə) ifadəsinin şərhi ilə başlayır. Belə məlum olur ki, satmamışdan bir müddət əvvəl sahibi dəvənin yelinini bağlayır ki, o çox süd verən heyvan kimi görünsün. İnsanın zənnini aldadan bu halın bəyənilməz olduğunu qəbul edən müəllif buna oxşar hadisələri də nümunə kimi verir. Məsələn, ağacın başında yetişmiş xurma ilə yaş xurmanın qarışdırılıb satılması, ovlanmamış quş və ya balığın, ölçülməmiş məhsulun satılmasını da riskli qəbul etdiyindən caiz bilməyir. Fəsildə "əl-muhaqalə" (taxılın yerli-dibli satılması), "əl- muxabira" (icarə haqqının məhsulla ödənilməsi), "əl-kəli`u" (nəzarətçi), "əl-müdaribə" (borc götürmə), "ət- təflis" (iflasa uğramaq) və s. kimi terminlərin açıqlanması da verilir.

Səkkizinci fəsil nikah və talaq haqqındadır. "əs-Sığar" ifadəsində "ğ" hərfi diakretik nöqtəlidir. Mənası o deməkdir ki, kişi başqa kişidən olan bacısı ilə evlənir. Yəni, mehrdən olmayan bacısı ilə evlənir. Çox güman ki, caiz deyildir. Xarəzmi fəqihlərin nəzərində mut`anın üç növü olduğunu qeyd edir və hər biri haqqında açıqlama verir. Əgər kişi qadınla mehrli olaraq məlum qaydada evlənirsə, onun nikahı müddətin başa çatması ilə tükənir. Ikinci halda, əgər qadının talağı verilərsə, onlar arasındakı evlilik qanunları pozulur. Üçüncü həcc mut`asıdır. Fəsildə ailə münasibətləri də yer alır. Əgər hamilə qadını əri atarsa, qadın dörd dəfə and içir ki, Allah haqqı o (kişi) haqlı deyildir. Əgər o (qadın), yalan deyirsə, Allah ona lənət etsin. Qadın dörd dəfə şəhadət verir ki, əgər o (kişi), haqlıdırsa, Allah ona (qadına) lənət etsin. Bunlara baxmayaraq kişi uşağı inkar edərsə, onlar ayrılarlar. Burada mövzu ilə bağlı "əl-muhəllil" (birinci ərinə halal olana qədər üç dəfə evlənib boşanmış qadınla evlənən kişi), "əl-useylə" (bal parçası) və s. kimi terminlərin açıqlaması da verilir.

Doqquzuncu fəsil qan bahası haqqındadır. Bu fəsildə öldürülmüş şəxsin qatilindən qan bahasının alınmasının üsul və növlərindən bəhs olunur. "əl-Ğürrə" azad və ya kölə olmasından asılı olmayaraq cinin üçün alınan qan bahasıdır. "əl-Qəsəmə" and içmə mənasını verir. Belə ki, əgər qövm arasında ölüm hadisəsi baş verərsə, qatil hesab edilən tərəfdən əlli şəxs şikayətçilər qarşısında and içirlər ki, onlar bunu öldürməyiblər və qatilini tanımayırlar. Bu zaman onlardan diyət alınmayır. "əl-Ərş" yaralanma ilə bağlı alınan qan bahasıdır (təyin olunmasında camaat iştirak etməyir). "əl-Cübəər" qan bahası ödənilməyən

qətldir. "əş-Şicəh" qanlı diyətdir. Burada qan bahası baş yarmaqla ödənilir. "əl-Bada`a" ətini kəsməklə tamamlanan diyətdir. "əs-Sımhaq" əzələ toxumasının kəsilməsinə görə alınan diyətdir. "əl-Mövdiha" sümüyə çatan yarığın qan bahasıdır. "əl-Munaqqalə" sümüyün çıxması ilə nəticələnən kəsik üçün alınan diyətdir. "əl-Həsimə" sümüyün sınmasına görə alınan diyətdir. "əl-Aammə" beyin kürəsinə çatan və eləcə də boşluğa dəyən zərbəyə görə ödənilən diyəti nəzərdə tutur.

Onuncu fəsil miras payı haqqındadır. Miras payı məsələsi fiqhdə çox geniş yer almasına baxmayaraq, Xarəzmi beş – altı məsələni şərh etməklə kifayətlənib.. "əl-Asabə" (qohumluq əlaqəsi) ifadəsini açıqlayan Xarəzmi qeyd edir ki, burada kişinin ata tərəfdən kişi qohumları, onun oğulları və atasının oğulları nəzərdə tutulur. "əl-Avul" (hesablama) miras payları artdıqda aparılır. "əl-Kələlə" (uzaq qohumlar) - əgər kişi vəfat edərsə, nə valideyni, nə də övladı qalarsa, uzaq qohumların miras payı ala biləcəyi nəzərdə tutulur. "əl-İkdəriyyə" miras payında məsələdir. Bu o zaman olur ki, qadın vəfat etdikdən sonara onun anası, bacısı və babası qalmış olsun. "Tənasüx" (ardıcıl olaraq keçid) elə bir mirasdır ki, bu zaman vərəsədən sonrakı vərəsə vəfat edərsə, mirasın əsli qalır və bölünməyir.

On birinci fəsil qeyri-adiliklər haqqındadır. "əl-Yəminul-xəmus" (yalandan and içmə) –məhz bununla həqiqət danılır və belə hərəkət edən günahlara qərq olur. "ən-Nukul" (etiraz etmək) andiçmədən imtina etmədir. "əl-Cərh" şahidin ifdəsinin rədd edilməsidir. "Filankəsin şahidliyi rədd edildi"- deyilir. Həmin şəxs "məcruh" adlandırılır. Belə ki, onun şahidliyi qəbul edilməyir. "ət-Təzkiyə" (bəraət qazandırma) əl-cərhin əksidir. "əl-Hacru" (qadağa) - əgər qazi bir şəxsin üzərinə qadağa qoyarsa, o alqı-satqı edə bilməz. "ət-Tədbir" (qabaqcadan xəbərdar etmə) – kişi qulunun və ya cariyəsinin öz vəfatından sonra azad olacağını qabaqcadan bildirir. Fəsildə həmçinin "əl-mukətibə" (qul ilə ağası arasında bağlanan müqavilə), "ət-tə`ciz" (köhnəlmə; qocalma), "ən-nucum" (qulun özbaşnalıq etməsi), "əl-umra" (ən böyük ömür), "ər-rüqbə" (daşınmaz əmlak) kimi ifadələrə qısaca olaraq açıqlama verilir.

Göründüyü kimi, məqalədə fiqhin Üsuli-fiqh, Taharat, Namaz, Oruc, Zəkat, Həcc və onun şərtləri, Qan bahası, Alqı, Nikah, Miras və Qeyri-adi hadisələr kimi on bir fəsli barədə məlumat verildi. Araşdırma zamanı Xarəzminin Girişdə mətnin yığcamlığı ilə bağlı söylədiyi fikir açıq-aydın görünməkdədir. Əsər üzərində ilk tədqiqat işini ən qədim qəbul edilən 1160-cı il nüsxəsi üzərində Niderland alimi van Vloten aparmışdır. Məqalədə əsas mənbə kimi əş-Şeyx əl-Cəlil əs-Seyyid Əbülhəsən Übeydullah bin Əhməd əl-Ətəbinin əsərin ərəb dilində olan dörd əlyazma nüsxəsi əsasında hazırladığı tənqidi mətninə müraciət olunmuşdur. Adı çəkilən tənqidi mətnə van Vloten ön söz yazaraq çap etdirmişdir."Məfatihul-ülum" Brokelman, E. Videman, Q. Sarton, F. Sezgin, V.Bartold, İ.Kraçkovski, Q.Matviyev, V. Rozenfeld, M.Rojanskaya kimi. görkəmli şərqşünas alimlər tərəfindən tədqiqata cəlb və tərcümə edilmişdir. Özbək alimləri M.M.Xayrullayev və R.M.Baxadirov Xarəzminin "Məfatihul-ülum" əsəri ilə bağlı monoqrafiya dərc etdirmişlər.

## ƏDƏBİYYAT:


1. Бахадиров, Р. и Хайруллаев, М. (1988). Абу Абдаллах Ал- Хорезми – X век. Академия Наук СССР. Научно-Виографическая Литература. Москва, «Наука».
2. Brokhelmann, C. (1898). Geshchte de Arabischen Litteratur. Weimar, Bd.1 Dublin.
3. Dönmez, İ. (2012). Üsuli-fiqh. TDV İslam Ansiklopedisi. 42-i c. İstanbul.
4. Əbilova (Babayeva), Z. (2012). Əbülqasim Mühəqqiq Hillinin "Şəraiul-islam fi məsailil – halal vəl – haram" əsəri Cəfəri məzhəbinin əsas qaynaqlarından biri kimi. Bakı – Elm və təhsil.
5. . ابو عبد الله محمد بن احمد بن يوسف الخوارزمی الكاتب . كتاب مفاتيح العلوم.

G. Van Vloten Luqduni – Batavorum 1895.